Su - əhalinin bütün təbəqələrinin mənafeyinə uyğun olaraq iqtisadi artımın ən mühüm göstəricisidir.



Sanitariya sağlamlıq, iqtisadiyyatın inkişafı və ətraf mühit üçün çox vacibdir. Atmosfer yağıntılarının paylanmasının dəyişmə xarakteri içməli su ehtiyatına təsir göstərir. Təhlükəsiz suyun çatışmazlığı gigiyenik prinsipləri pozaraq, infeksion xəstəliklərin riskini artıra bilər.



Su təchizatı, sanitariya və gigiyena xidmətləri yoluxucu xəstəliklərin yayılması zamanı infeksiyaların qarşısının alınması və insan sağlamlığının qorunmasında vacib elementlərdən hesab olunur.



İqlim dəyişikliyi su vasitəsilə özünü göstərir. Hər on təbii fəlakətdən doqquzu hidroloji mənşəlidir. Su ilə bağlı iqlim riskləri qida, enerji sahələrni əhatə edir.

**Xəzər dənizi Yer kürəsinin ən böyük qapalı su hövzəsidir.**

Dənizdə karbohidrogen ehtiyatarının kəşfiyyatı, hasilatı və nəqli zamanı ekoloji tələblərə əməl edilməməsi, müxtəlif çirkləndiricilərin sənaye tullantılarının çay suları ilə dənizə axıdılması, təmizlənməmiş məişət tullantı suları, üzən nəqliyyat vasitələrinin tullantıları, kənd təsərrüfatında və suvarmada istifadə olunan gübrə qalıqları və s. dənizin ekoloji probleminin əsas səbəblərindəndir. Xəzər dənizinə axıdılan tullantı sularının əsas hissəsi Volqa çayının payına düşür.



Xəzər dənizinin çirklənməsində Kür və Ural çaylarının da böyük rolu var. Ermənistan və Gürcüstan ərazisindən məişət və sənaye tullantı suları Kür çayı vasitəsilə Xəzər dənizinə axıdılır.



Xəzər dənizinin sahilində yerləşən Bakı, Sumqayıt, Mahaçqala, Həştərxan, Türkmənbaşı, Rəşt, Ənzəli və digər şəhərlərdən dənizə axıdılan tullantı suları onun əsas çirkləndiricilərindən hesab olunur.

Coğrafi mövqeyinə və okeanlarla əlaqəsinin olmamasına görə Xəzər dənizinin səviyyəsi onu qidalandıran çaylardan, zaman keçdikcə dəyişən dənizin su balansının əsas komponentləri olan yağıntı və buxarlanmadan daha çox asılıdır.



Dənizlər və okeanlar karbon qazının 30%-dən çoxunu udur və nəticədə qlobal istiləşmənin təsirlərini də azaldır.

RGEM “Respublika Gigiyena və Epidemiologiya Mərkəzi” PHŞ
www.rgem.az

# İqlim dəyişikliyi və su çatışmazlığı

